"Güclü sosial siyasət bundan sonra da davam etdiriləcəkdir. Xüsusilə yaşlı nəslə, ağsaqqallara, ağbirçəklərə daim diqqət göstərilməlidir və göstəriləcəkdir. Belə gözəl müəssisələrin yenidən qurulması və bütün işlərin müasir səviyyədə təşkili Azərbaycan dövlətinin siyasətini və iradəsini əks etdirir".

**İlham ƏLİYEV**









# Tənha ahılların ən böyük himayədarı dövlətdir

*Ölkəmizdə ildən-ilə güclənən sosial siyasətin mühüm istiqamətlərindən biri də ahıl insanların sosial müdafiəsinin gücləndirilməsinə və layiqli həyat şəraitinin təmin edilməsinə, eləcə də həyatının ahıl çağında bu və ya digər səbəblərdən tənha və köməksiz qalmağa məhkum olmuş insanların dövlət tərəfindən hərtərəfli təminatla əhatə olunmasına yönəlib. Bunu Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Müharibə və əmək əlilləri üçün pansionatının, xalq arasında daha çox Qocalar evi kimi tanınan məkanın simasında da aydın şəkildə görmək olar.*

Bakının Bilgəh qəsəbəsində, dənizdən əsən mehin qəlbə xoş bir rahatlıq duyğusu bəxş etdiyi, bağlı-bağçalı bir məkanda yerləşən bu müəssisənin ahıl sakinləri üçün könül rahatlığının bir başqa və həm də əsas səbəbi daimi dövlət himayəsində yaşamaq, bunun istisini daha yaxından hiss etmək, tənhalığın dərdini, sıxıntısını bu istidə əridə bilməkdir. Bura ömrün ahıl vaxtında, doğmalarından qayğı, qulluq, ən azı mehriban münasibət ummağa haqqı çatdığı məqamda müxtəlif səbəblərdən bütün bunlardan əli üzülmüş, ümidi kəsilmiş bir qoca üçün unudulmaq, biryolluq tərk edilmək, atılmaq qorxusunun bitdiyi, özünü qayğı əhatəsində gördüyü, daimi olaraq yaşayış şəraiti, qida, geyim və tibbi xidmətlə təmin olunduğu doğma bir evdir.

1998-ci ildə, Qurban bayramı ərəfəsində ümummilli lider Heydər Əliyev Müharibə və əmək əlilləri üçün pansionata gələrək, burada yaşayan ahıllarla görüşmüşdü. O zaman ulu öndərin "Əmin ola bilərsiniz ki, sizin həyatınız, yaşayışınız daim bizim, Prezidentin qayğısı altındadır və bundan sonra da belə olacaqdır" sözləri həyatda real təsdiqini tapdı. Ahıllara dövlət qayğısı ilbəil artırılmaqla, onların sosial müdafiəsi, o cümlədən pensiya təminatı gücləndirilməklə yanaşı, ahılların dövlət himayəsində yaşadığı və kompleks sosial məişət və tibbi xidmətlə təmin olunduğu bu müəssisənin hərtərəfli təminatı üçün məqsədyönlü işlər görüldü.





Azərbaycan Prezidenti İlham Əliyevin ağsaqqal, ağbirçək insanlara daim qayğıkeş münasibətinin daha bir ifadəsi kimi, Müharibə və əmək əlilləri üçün pansionatda əsaslı təmir və yenidənqurma işləri aparıldı. Əsas binada yaşayış şəraiti, kommunal sistemlər yenilənməklə bərabər, müəssisə üçün müasir tələblərə uyğun yeni korpus inşa olunaraq istifadəyə verildi. Burada qabaqcıl beynəlxalq təcrübədən irəli gələn meyarlara uyğun olaraq, tənha ahıl şəxslərin daha keyfiyyətli tibbi-sosial xidmətlə təmin edilməsi, asudə vaxtlarının mənalı təşkili üçün müvafiq şərait, kitabxana və idman zalları yaradıldı. Müəssisənin geniş həyət-bacasında abadlıq və yaşıllaşdırma işləri görüldü.







Müəssisənin yeni korpusunun açılışında dövlət başçısı *"Bu pansionatın yenidən qurulması, bax belə müasir səviyyədə işlərin görülməsi Azərbaycan dövlətinin güclü sosial dövlət olduğunu təsdiqləyir. Mən bu barədə dəfələrlə fikirlərimi bölüşmüşəm, bir daha demək istəyirəm ki, dövlətimiz sosial dövlətdir. Sosial dövlət o dövlətdir ki, sosial sahəyə, insanlara böyük diqqət göstərilir və siyasətin mərkəzində vətəndaş dayanır"* deyə vurğulayıb. Həqiqətən də pansionata daxil olarkən burada ahıl insanlar üçün yaradılan şərait, göstərilən xidmətlər Azərbaycanın bir dövlət olaraq eyni zamanda öz ahıl insanlarına nə qədər diqqət və qayğı ilə yanaşdığını sübut edir.

Onu da qeyd edək ki, əvvəllərdə pansionatda ahıl yaşdan daha aşağı yaşda olan şəxslərin də yerləşdirilməsi hallarına yol verilirdi ki, bu da müəssisənin təyinat profilinə uyğun fəaliyyət göstərməsində maneəyə çevrilirdi. Son illərdə həmin nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görüldü və pansionatın öz nizamnaməsinə uyğun şəkildə fəaliyyət göstərməsi təmin olundu.

Pansionatın direktoru Qətibə Əsədova deyir ki, bu gün dövlət himayəsində yaşayan insanlara hərtərəfli diqqət və qayğı göstərilən sosial xidmət müəssisələrindən biri də bu pansionatdır: "Pansionatın sakinlərinin burada özlərini doğma ev mühitində hiss etmələri, qayğı və mehriban münasibətlə əhatəsi, rahat yaşayış şəraitinə malik olmaları üçün bütün işlər görülüb. Hər bir otaq lazımi məişət avadanlıqları, kommunal təchizat sistemi ilə təmin olunub. Bütün səylər ona yönəlib ki, hansısa bir sakində narazılıq yaranmasın. Eyni zamanda biz ahıl insanların sağlamlığının da qayğısına qalırıq, vaxtaşırı onların pulsuz tibbi müayinələri təşkil edilir, xəstəliklərinin erkən aşkarlanması və qarşısının alınması üçün müvafiq işlər aparılır".

Hazırda müəssisədə 211 nəfər ahıl şəxsin dövlət təminatında yaşadığını, onlardan 112 nəfərinin qadınlar olduğunu qeyd edən Q.Əsədova əlavə etdi ki, pansionat sakinlərinin asudə vaxtının mənalı keçməsi də diqqətdə saxlanılır. Burada kitabxana və idman zalları ilə yanaşı, emalatxana da sakinlərin xidmətindədir: "Ahıllarımız arasında istedad və qabiliyyəti ilə seçilənlər də az deyil. Onlar üçün emalatxanada lazımi şərait yaradılıb və orada müxtəlif əl işləri hazırlamaqla məşğul olurlar. Məsələn, Davud Əliyev yaxşı rəsm əsərləri çəkir, Abbas İlyaszadənin isə tar, kaman və digər çalğı alətləri hazırlamaqda məharəti var. Həbib Qənbərov, Xalid Hüseynov, Xoşqədəm Quliyeva, Tima Əhmədova, Lalə Rəhimova və digərləri də yaradıcılıqla məşğul olurlar".

Q.Əsədova pansionatın ahıl sakinlərinin tez-tez sərgilərdə əl işləri ilə iştirak etdiklərini diqqətə çatdırdı: "Məsələn, elə bu günlərdə beynəlxalq qadınlar günü ilə əlaqədar Muğam Mərkəzində təşkil olunan sərgidə bizim pansionat da təmsil olunurdu. Orda bizim ahıl insanların da yaradıcılıq nümunələri, əl işləri təqdim edildi və maraqla qarşılandı".

Ahıllar arasında tez-tez stolüstü idman yarışlarının da təşkil edildiyini bildirən Q.Əsədova bayramlarla, əlamətdar günlərlə bağlı pansionatda tədbirlər keçirildiyini bildirdi: "Çalışırıq ki, bu insanlar heç zaman yalqızlıq hissi yaşamasınlar, xiffət hissi keçirməsinlər. Qarşıdan əziz Novruz bayramı gəlir. Həmişə olduğu kimi, bu dəfə də bu əziz bayramı pansionatın ahıl, ağbirçək sakinlərinin üreyincə olan bir şəkildə, incəsənət ustalarının iştirakı ilə qeyd edəcəyik. Bununla yanaşı, Novruz bayramı ilə əlaqədar Bakının Sabunçu rayonu üzrə təşkil olunacaq sərgiyə də hazırlaşırıq. Həmin sərgidə bizim pansionatın ahıl sakinlərinin hazırladıqları əl işləri də nümayiş etdiriləcək".

Pansionatın sakinləri ilə söhbət zamanı onlar Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ahıl insanların sosial müdafiəsinə göstərilən diqqət və qayğıdan, eyni zamanda bu sosial xidmət müəssisəsində hərtərəfli təmin olunmalarından razılıqla söz açdılar və dövlətimizin başçısına minnətdarlıqlarını ifadə etdilər.

Onlardan Abbas İlyaszadənin dediklərindən: "Artıq 80 yaşım var və bu ahıl yaşımda məni ən çox sevindirən odur ki, həm ölkəmiz, dövlətimiz daim inkişaf edir, həm də biz ahıllara qayğı artır. Elə bir qədər öncə, bu ilin yanvar ayında möhtərəm Prezidentin sərəncamı ilə yaşa görə əmək pensiyasının baza hissəsinin məbləğinin növbəti dəfə artırılması bunun daha bir təsdiqidir. Bu pansionatda yaradılan gözəl yaşayış şəraiti, hərtərəfli təmin olunmağımız da məhz dövlətimizin başçısının bizlərə olan qayğısından irəli gəlir. Bütün bunlara görə Prezidentə minnətdarıq".

Davud Əliyevin bildirdiyinə görə, əvvəllərdə tənhalıqdan çox xiffət çəkib: "Amma indi görürəm ki, yox, heç də tənha deyiləm. Çünki mənə daim həyan olan, dayaq duran, mənə bütün qayğıları göstərən dövlət var - Azərbaycan dövləti və bu dövlət də gücləndikcə, bizlərə qayğısını da artırır. Bütün bunların əsas səbəbi isə möhtərəm Prezident İlham Əliyevin uğurlu siyasətidir, bu siyasətin mərkəzində məhz Azərbaycan vətəndaşının layiqli həyat şəraitinin dayanmasıdır".

***Elgün MƏNSİMOV,***
***"Azərbaycan"***